Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Ədalət.S.7.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 170 (2018) 21 noyabr 2019-cu il


# NEFTÇALADA YANAN MƏŞƏL

**Bəzi görkəmli ziyalılarımız elmi istedadı ilə mərkəzdə yüksək mövqe qazana biləcəyi halda, ucqarlarda, xidmətin ön cəbhəsində fəaliyyət göstərməyə üstünlük vermişdilər. Onların bu fədakarlığından gözlərində sabahlarının ümidi yanan yüzlər, minlər, on minlərlə şagirdlərimiz faydalanmış, gələcəklərinə doğru düzgün şəkildə istiqamətləndirilmişdilər. Onlar əyalətlərimizin mənəvi həyatında da əvəzedilməz xidmət göstərə bilmişdilər.**

Belə ziyalılarımızın biri də unudulmaz İmamverdi Əbilovdu. Məşhur şairimiz Osman Sarıvəllinin "Yol üstəki işıq" adlı şeiri oxucularına xeyirxah hislər aşılayır. Müəllif yaradıcılığının yolu üstdəki həmin işıq zülmətli gecələrdə nabələdlərin dadına çatır.

Mən həyatda, gerçək şəkildə yandırılmış, demək olar ki, böyüklü-kiçikli bütün yazıçılarımızın dadına çatmış bir məşəldən söhbət açmaq istəyirəm. Həmin müqəddəs nuru İmamverdi Əbilov yandırmış və illərcə şölələnmişdir.

Bu günlər demək olar ki, özü-özlüyündə muzeyə çevrilmiş həmin ocağın əsasən kitablardan ibarət olan eksponatları kimlərdən xəbər vermir. Ədəbiyyatımızın sərkərdəsi sayıla bilmiş ədiblərimizdən, əli yeni qələm tutan sıravilərinə qədər demək olar ki, hamısı həmin müqəddəs ocağın nuruna çəkilmişdi.

Günlərin bir günü ömür yollarım məni də həmin işığa çatdırmışdı. Bunu təsadüfi deyil, zərurət hesab edib illər uzunu müqəddəs bir şəxslə tanışlıqdan qürur duymuşam. Həmin tanışlığın İmamverdi müəllimin məhəbbət dolu cazibə qüvvəsindən yarandığını sanmışam.

Bəşəriyyət tarixi dahi və əvəzsiz şəxsiyyətlərini öz tarixi kimi də qiymətləndirilə bilər. Ölkəmizdə formalaşmaqda olan təhsil sistemində pedaqoji kadrlara çox böyük ehtiyac duyulurdu. Gənclərə örnək ola bilən elmi-pedaqoji simaları barmaqla saymaq olardı. Bizim tanıdığımız böyük sima, müdrik pedaqoq və qeyri-adi şəxsiyyətlərdən biri Neftçala şəhərindəki 1 №-li orta məktəbin ədəbiyyat müəllimi, tənqidçi, ədəbiyyatşünas, publisist, filologiya üzrə alimlik dərəcələrini daşıyan, qabaqcıl maarif xadimi, maarif əlaçısı, əmək veteranı, Yazıçılar Birliyinin üzvü, professor Əbilov İmamverdi Xankişi oğludur.

Azərbaycan Politexnik İnstitutunda təhsil alarkən, 1953-cü ildən 1958-ci ilədək dəfələrlə tələbə dostum Əsgərov Camal ilə Neftçalanın Qoltuq kəndinə gedirdik. Camalgildə bir qədər qaldıqdan sonra həmin kənddə yaşayan qohumum Babayev Bahəddinlə görüşürdüm. Bahəddin Neftçala neft mədənlər idarəsində operator işləyirdi. Özü də mənim işlərimlə, təhsilimlə əməlli-başlı maraqlanırdı. Bahəddinə həsr etdiyim "Neftçi" şeirini (əlyazmamı) ona təqdim etdim. Şeiri oxuyan kimi başladı mənə suallar verməyə:

- Sən institutda oxuyursan ki, mühəndis olasan, yoxsa şeir yazıb şair olmaq istəyirsən?

- Əvvəla bir şeirlə heç kim şair olmur, ikincisi də, sənin xətrinə yazdım, istəyirəm biləsən bizim xalq - şair xalqdır. Demək olar ki, hamı şeir yazır, ancaq, dərc olunan azdır. Bu da ürəklərin odundan, alovundan doğulur, ətrafını yandırıb, yaxmır. Onsuz da necə deyərlər, "Hər oxuyan Molla Pənah olmaz" - deyiblər. Yaxşı, de görüm sən yazdıqlarını hansı qəzet-jurnala verirsən. Dedim: "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi"nə və s. Uşağımın müəllimi bilir ki, sən Bakıdan bizə gəlib-gedirsən.

Həmin kənddə, qohumum vasitəsiylə İmamverdi müəllimlə tanış oldum. İlk qazancım da ilk şeirlərim barədə faydalı məsləhətlər almağım oldu. Həm də şeir yazmağıma neftçi qohumum kimi daralmalıdır:

- Yaz oğul, ürəkdən süzülən çeşmə yollarını tutmaq olmaz... Yazanların çoxluğu şeir meydanını daraltmır. Əksinə, onu çox səsli və çox ritmli edir ki, aralarından Nəsimilər, Füzulilər, Vaqiflər çıxır...

Neftçalaya növbəti səfərimdə qohumum Bahəddini qapqara kəsilmiş gördüm. Elə bildim gəlişimə daralır.

Aramızda qısa mühakimə oldu.

- Sizə çox zəhmət verməyəcəyəm.

- Sən gör nə fikirləşirsən, qanımı qaraldan kəndə bu gəliş deyil, obadan bir gedişdi.

Az sonra hər şeyi təfsilatıyla öyrəndim. Demə, həmin günlər həmin gediş tək Bahəddinin deyil Qoltuq kəndinin bütün valideynlərinin qanını qaraldıbmış. Balalarının sevimli müəllimi İmamverdi Əbilovu Neftçala şəhər məktəbinə aparıblarmış. Orda da bütün valideynlər uşaqlarına onun dərs keçməsini istəyirlərmiş.

- Uşağı aparıb Neftçala şəhərində 1 №-li orta məktəbə qoymuşam, İmamverdi müəllimin maraqlı dərs deməsi məktəb üçün probleme dönüb. Hamı İmamverdi müəllimin onlara dərs deməyini istəyir.

Məktəb direktoru həmin problemi aradan qaldırmaq üçün İmamverdi müəllimə müraciət etməli olmuşdur.

- Uşaqdan, böyüyə bunların hamısını sən razı sala bilərsən. Bir gör neyləyə bilərsən.

İmamverdi müəllimin səmimiyyətlə yoğrulmuş sözləri şagirdləri də, valideynləri də razı sala bilmişdi.

- Söz verirəm ki, mənim dərsimdən heç kəs kənarda qalmayacaq. O biri siniflərə də dərsdən kənar ədəbi məşğələlər keçirəcəyəm.

Bir gün də "Elmlər Akademiyası" metrostansiyasından çıxıb Elmlər Akademiyasının yeni binasına tərəf gedərkən xalq şairi Xəlil Rza Ulutürkə rast gəldim. Bir qədər mehriban söhbətdən sonra, adəti üzrə məni evinə dəvət etdi. Dedim ki, çox sağ ol. Mən yarım saata özümü avtobus vağzalına çatdırmalıyam, Neftçalaya getməliyəm. O, bildirdi ki, məni də Salyanda qardaşım gözləyir, onunla bir qərar qəbul edib bacı qızının toyuna getməliyik. Belə isə elə bir yerdə gedək.

Neftçalada avtobusdan düşən kimi İmamverdi müəllimə rast gəldik. Hal-əhvaldan sonra Xəlil Rza Ulutürk: İmamverdi müəllim uşaqlar necədirlər?

- Əzizim, uşaqlar gözlərimin işığı, ölkəmin gələcəyi, qəlbimin sevinci və ürəyimin taqətidirlər, onlardır məni yaşadan, ömrümə ömür calayanlardır onlar. Eyni meyarla xalqın balalarını eyni atalıq məhəbbəti ilə tərbiyə etmək borcumuzdur.

İmamverdi müəllim, Sizdə dəfələrlə olmuşam və yenə də gəlməyə söz verirəm. İndi isə hələlik xudahafiz. Bizdən uzaqlaşan müqəddəs adamın arxasınca



Xəlil söylədi.

- Nə yaxşı Neftçala uşaqlarının bəxtinə belə işıqlı ziyalı düşüb. O, Əlibəy Hüseynzadələr, Cavidlərlə tanışlıqda körpüyə çevrilib. Biz yazıçıların da Neftçalada səfirinə dönüb.

İmamverdi müəllim dərsdənkənar məşğələlərdə: Əlibəy Hüseynzadə və Salman Mümtaz kimilərin ənənələrini davam etdirən İmamverdi müəllimin ev nuzeyinin formalaşdırılması xalqın sevincinə səbəb olardı. Həmin ev muzeyinin qarşısında görkənli ədiblərin, tarixi şəxsiyyətlərin abidələrinin (büstlərinin) ucaldılması yerinə düşərdi.

İmamverdi müəllim cəmiyyətimizin, millətimizin inkişafı ilə əlaqədar Əlibəy Hüseynzadənin konseptual fikir və ideyalarını çox sadə bir dillə şagirdlərə və dinləyicilərə çatdırırdı. Bununla yanaşı, Həsən bəy Zərdabinin təkcə ölkədə mətbuatın əsasını qoyan (yaradan) şəxs kimi deyil, həm də həmvətənlərinin hər birinin sağlam böyüməsi, yaşaması üçün yazıb qoyduğu "Bədəni salamat saxlamaq düsturullənməlidir" kimi əsərlərinin əvəzsiz məxəz olduğunu şagirdlərə çatdırmaqla yanaşı, dünyada təbabətin insanların xidmətinə verməyin əsas istiqamət-lərini verən - əsaslandıran dahi İbni-Sinanın xidmətlərini öz dinləyicilərinə (şagirdlərinə) çatdırırdı:

Mütəfəkkir-pedaqoq və alim olan İmamverdi müəllim memuar ədəbiyyatlardakı çox maraqlı epizodlardan da öz şagirdlərinə çatdırırdı.

İmamverdi müəllim cədvəllərdən kənar məşğələlərdə (dərnəklərdə) ölkənin keçmişindən, onun dahi şəxsiyyətlərindən (Xaqani, Nizami, Nəsimi, Füzuli, Seyid Əzim Şirvani, M.Ə.Sabir, Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad, Üzeyir Hacıbəyov, M.Ə.Rəsulzadə və s.) şagirdlərinə maraqlı epizodlar danışırdı. Odur ki, İmamverdi müəllim şagirdlərinin, rayon əhalisinin sevimlisinə çevrilmişdir. İmamverdi müəllimin maraqlı məşğələlərindən xəbər tutan müəllimlər və valideynlər də onun maraqlı dinləyicilərinə çevrildilər. İmamverdi müəllim haqqında xatirələr toplansa bir neçə kitab bağlanar.

İmamverdi müəllimin xidmətlərindən biri də (hələ SSRİ vaxtında) o vaxtkı, ateizm təbliğatının əksinə olaraq dinin fundamental elmi əsaslara malik olduğunu sübut etməkdən ibarətdir. Qurani-Kərimdəki ayələrdə çox mətləblərə aydınlıq verilir. İmamverdi müəllim dinin elm olduğunu öz dinləyicilərini inandıra bilirdi.

Respublikada çətin tapılan və heç tapılmayan kitablarını ancaq İmamverdi müəllimin şəxsi kitabxanasında tapmaq mümkündür.

Heç şübhə yoxdur ki, müdrik pedaqoq və alim İmamverdi Əbilovun elmi-pedaqoji irsinə olan marağı ilə bağlı əlaqədar tədqiqatçılar tərəfindən kitablar yazılacaq və dissertasiyalar müdafiə olunacaqdır.

Tədricən artıq 50 ildən çox bir müddətdə həmvətənlərimiz İmamverdi Əbilov irsinin və məbədin ziyarətindən zənginləşdiklərindən cəsarətlə demək olar ki, İmamverdi müəllim xalqın sevimlisinə çevrilmişdir. Heç şübhəsiz, gənc nəsil dərin minnətdarlıqla İmamverdi Əbilov məbədi hesabına zənginləşəcək və həqiqi vətəndaş kimi formalaşacaqlar. İmamverdi müəllimin evi artıq çoxdan ədəbiyyat evinə, dünyadakı ən dəyərli məxəzlərin hesabına zənginləşmiş əvəzsiz məbədə çevrilmişdir. Nəinki Azərbaycan ədəbiyyat tarixinin inciləri, həm də dünya xalqlarının dahilərinin yaratdığı incilər bu məbəddə toplandığından İmamverdi Əbilov adına ev muzeyi kimi rəsmiləşdirilməli və onun adı ədəbiləşdirilməlidir.

Neftçalada əbədi məşəlsayağı bir maarif işığı yanır. O, heç zaman sönməyəcək, gənc nəsillərin yolunu nurlandıracaq. Qələm sahiblərini işığına toplayacaq.

***P.S. (pərsəng söz) Qələm çalmağımı məsləhət bilmiş ustada bir şeir də ithaf etdim.***

***NUR PAYLAYAN ADAMA***

**Məşələ döndərib özünü**
**həm böyütdü,**
**həm nurlandırdı**
**Şagirdlərinin**
**Sabaha zillənən gözünü...**
**Neft çalası deyilən yerin**
**Nur yatağı oldu.**
**Bütün uşaqlara calana bilən**
**Ziya tağı oldu.**

**Hamı ünvanına**
**özünü,**
**sözünü göndərdi**
**Beləcə Neftçalada evini**
**Yazıçı birliyinə döndərdi**
**Bir məşəl birləşdirdi**
**doğunu, batını,**
**güneyi, quzeyi.**
**Beləcə də dönüb oldu**
**Yazıçılar məbədi, -**
**Əbilov muzeyi...**

**Sabir Cümşüd**
**şair, professor**


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR